***T**əcavüzkar Ermənistan silahlı qüvvələri ağır itki verə-verə işğal etdikləri Azərbaycan ərazilərindən geri çəkilir. Silah-sursatını, ağır texnikasını, hətta öz döyüş bayrağını atıb qaçan düşmən bu dəfə canını qurtara bilməyəcək. Söz yox ki, sentyarbrın 27-nə qədər Ermənistan ordusu 3 dəfə ağır məğlubiyyətə uğramışdı və Azərbaycan Silahlı Qüvvələrinin qarşısında davam gətirmək iqtidarında olmadığını görmüşdü. Görünür, bu həqiqəti qəbul etmək istəmədiyindən yenidən təxribatlara və genişmiqyaslı hücuma başladı və qarşısında yenə də qüdrətli Azərbaycan Ordusunu gördü. Oktyabrın 4-də Prezident İlham Əliyev xalqa müraciətində də ordumuzun şücaət göstərdiyini bildirdi. Dedi ki, bir həftədir Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, yerinə oturdur, torpaqlarımızdan qovur, canı-qanı bahasına.***

***Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa dövlət başçısının xalqa müraciətindən söhbət açarkən dedi:***

# Xalqımız Prezidentimizi birmənalı dəstəkləyir



– Ümumiyyətlə, Prezidentin bütün çıxışları, müraciətləri, müsahibələri Azərbaycan xalqının iradəsini əks etdirir, əhval-ruhiyyəsini göstərir. Azərbaycan xalqı bütün gücünü səfərbər etməlidir. Ermənistanın genişmiqyaslı hərbi əməliyyatlara başlaması, sadəcə bölgənin deyil, beynəlxalq aləmin də təhlükəsizliyini ciddi şəkildə təhdid edir. Ona görə də bütün gücümüzü ortaya qoymalıyıq ki, problemlərin həlli yolunda çevik addımlar ataq. Artıq mən xalqımızın həmrəyliyini görürəm və bu, məni çox sevindirir. Mənim rəhbərlik etdiyim Böyük Quruluş Partiyası da daxil olmaqla, Azərbaycanda fəaliyyət göstərən 52 siyasi partiyanın 50-nin Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanat qəbul edərək həmrəylik və birlik nümayiş etdirməsi dövlət başçısına olan inam və etimadın göstəricisidir. Bəyanatda deyilir ki, Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı əməliyyatlara başlaması, mülki əhalinin yaşadığı kəndləri və infrastrukturları hədəf kimi seçərək ağır silahlarla bombalaması beynəlxalq hüquqa ziddir və qarşısı qətiyyətlə alınmalıdır.

F.Mustafa ölkə başçısının müraciətindəki bəzi məqamları diqqətə çatdırdı: “Prezident açıq şəkildə Azərbaycan xalqına problemin mahiyyəti ilə bağlı məlumat verdi. Dedi ki, biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli, tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində – 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar”.

Dövlət başçısı bir daha bəyan etdi ki, biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Partiya sədri bildirdi ki, artıq hər şey insanların özünə qalır ki, onlar dövlətin nə qədər ağır çətinliyin öhdəsindən gəldiyinin mahiyyətini başa düşsünlər. İnsanlar artıq anlasınlar ki, dövlət nə qədər güclü olarsa, torpaqlar da daha tez işğaldan azad olunacaq. Əminəm ki, insanlar möhtərəm Prezidentimizi birmənalı olaraq dəstəkləyirlər: “Xalq bir yumruq kimi birləşir. Biz bu istiqamətdə işimizi elə qurmalıyıq ki, Azərbaycan torpaqları tamamilə işğaldan azad olunsun”.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 8 oktyabr.- S.11.